# MÜASİR DÖVRDƏ GƏNC OXUCULAR ARASINDA MİLLİ İDEOLOGİYAYA VƏ DÖVLƏTÇİLİYƏ DAİR ƏDƏBİYYATIN TƏBLİĞİ

**A.A.HACIYEVA**
***Bakı Dövlət Universitetinin magistrantı***

*Məqalədə Azərbaycanın müstəqilliyi şəraitində milli ideologiyaya və dövlətçiliyə aid ədəbiyyatın təbliğinin əhəmiyyətindən, kitabxanalarda onun təbliği formalarından bəhs edilmişdir.*

Azərbaycanın müstəqilliyi şəraitində gənc nəslin dünyagörüşünün düzgün formalaşmasına, mənəvi tərbiyəsinə və əsl şəxsiyyət kimi yetkinləşməsinə xüsusi diqqət yetirilir. Bu sahədə digər sosial institutlarla yanaşı olaraq, milli ideologiyaya və milli dövlətçiliyə dair ədəbiyyatı geniş oxucu kütləsi arasında təbliğ edən kitabxanaların üzərinə də mühüm vəzifələr düşür. Bu amillərdən çıxış edən Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor A.Xələfov qeyd edir ki, müasir dövrdə respublikamızda elm, mədəni quruculuq, elmi-texniki tərəqqi, təhsil və tərbiyə sahəsində qazanılan nailiyyətlər, cəmiyyət üzvlərinin intellektual səviyyəsinin yüksəlməsi, ziyalı ordusunun sürətlə artımı, oxucu kontingentinin keyfiyyətcə yüksəlməsi kitabxana xidməti qarşısında professionallığın artırılmasını, xidmət prosesinin daha da optimallaşdırılması və çevikləşməsi vəzifələrini qoymuşdur. Ona görə də tipindən və növündən asılı olmayaraq bütün kitabxanalar oxucularla aparılan informasiya işini cəmiyyətin qarşıya qoyduğu vəzəfələrin yerinə yetirilməsinə, milli ideologiyamızın təbliğinə, dövlətçiliyimizin möhkəmlənməsinə yönəltməldir (3).

Məlumdur ki, hər bir müstəqil dövlətin qurulması, gücləndirilməsi milli özünü qoruma hissindən başlayır, bu fikir inkişaf etdirilərək ideoloji bir sistemə çevrilir. Milli dövlətçiliyə və milli ideologiyaya dair ədəbiyyata dövlət quruculuğuna, milli ildeologiyaya, fəlsəfəyə, iqtisadi nəzəriyyəyə, ölkəmizin və başqa ölkələrin tarixinə, sosiologiyaya, demoqrafiyaya, siyasətə, hüquqa, hərbi işlərə, elm və maarifə, pedoqogikaya, psixologiyaya və s. dair elmləri aid edirlər. Bu ədəbiyyatı təbliğ etməklə kitabxanalar və kitabxanaçılar həm müstəqil Azərbaycan dövləti üçün yararlı və faydalı olan hərtərəfli inkişaf etmiş, elmi və siyasi cəhətdən zəngin dünyagörüşünə yiyələnmiş fəal şəxsiyyətlər tərbiyə edir, həm də bilavasitə milli dövlətçiliyimizin inkişafına və dirçəlməsinə yardım göstərirlər.

Azərbaycan Respublikası siyasi strategiyasının əsas müddəalarının yaradıcısı olan ümummilli liderimiz Heydər Əliyev demişdir: “Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir” (2).

Azərbaycanın milli dövlət kimi özünü dünyada tanıtmasında əldə olunan istiqlalı qorumaq, möhkəmləndirmək üçün milli ideyanın həyata keçirilməsi dövlətin siyasi strateji məqsədlərindən biridir və bu məqsədlərin həyata keçirilməsində Heydər Əliyevin rolu xüsusilə qeyd olunmalıdır. Milli ideya uğrunda mübarizə azadlıq məfkurəsi uğrunda aparılan mübarizədir.

Milli ideologiyanın tərkib hissəsindən biri də azərbaycançılıq anlayışıdır. Azərbaycançılığın əsas məzmununu ümumi vətən anlayışı, vətəndaş birliyi təşkil etmişdir. Bu baxımdan 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında «Azərbaycan xalqının vahidliyi», «Azərbaycan Respublikasının bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətəni» olması ideyası öz əksini tapmışdır.

Müstəqillik dövrü kitabxananın qarşısında gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi vəzifəsini qoymuşdur. Müharibə şəraitində yaşayan ölkəmizdə gənclərin vətən sevgisi, vətəni işğalçılardan azad etmək ruhunda tərbiyəsi kitabxananın əsas vəzifələrindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, müstəqillik illərində gənclərin tərbiyəsinə, gənclərlə aparılan işə xüsusi diqqət yetirən ulu öndər Heydər Əliyev gənc nəslin tərbiyəsini xalqın və dövlətin əsas vəzifəsi hesab edirək deyirdi: “Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan və tərbiyə etməkdən ibarətdir” (2).

2006-cı il yanvarın 1-nə olan məlumata görə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fondunda 214 min nüsxəyə qədər ədəbiyyat olmuşdur ki, onun da 50 min nüsxəyə yaxınını milli dövlətçiliyə və milli ideologiyaya dair ədəbiyyat, o cümlədən Konstitusiyamızla bağlı kitablar, ümummilli liderimiz Heydər Əliyevin ayrı-ayrı dövrlərdə nəşr edilmiş çoxcildli əsərləri təşkil edir. Bu fondun düzgün təbliği oxucuların ideya-siyasi tərbiyəsinə, hərbi vətənpərvərlik hazırlığına, torpağa bağlılığına, yüksək mədəni səviyyəsinə, elmi dünyagörüşünün inkişafına mühüm təsir göstərir.

C.Cabbarlı adına RGK-da milli dövlətçiliyə və milli ideologiyaya dair ədəbiyyatın təbliğinə həsr edilən əyani təbliğat formaları bilavasitə kitabların, məlumat mənbələrinin, çap əsərlərinin özünü nümayiş etdirir, konkret olaraq oxucuların nəzərinə çatdırır, mühüm siyasi, iqtisadi, hərbi, ideyaloji məsələləri izah edir, cəmiyyətin inkişaf qanununun dərk edilməsinə, əhalinin, xüsusilə gənc oxucu qruplarının şüuruna milli dövlətçilik ideyalarının aşlanmasına, onların Vətinimiz Azərbaycana sədaqət, torpağa məhəbbət, yurda, xalqa, millətə sevgi ruhunda tərbiyələnməsinə mühüm təsir göstərir. Oxucularda ictimai-siyasi görüşlərin formalaşmasının müvəffəqiyyəti, hər şeydən əvvəl, təşkil olunan əyani təbliğatın keyfiyyəti və təsir dairəsi ilə müəyyənləşir. Bu fikrin konkret ifadəsini həmin kitabxanaların milli dövlətçiliyə və milli ideologiyaya dair ədəbiyyatın təbliği istiqamətində təşkil etdikləri əyani kütləvi tədbirlərində müşahidə etmək olar. Məsələn, milli dövlətçiliyə və milli ideologiyaya dair ədəbiyyata dair 2000-cı ildə 14, 2001-ci ildə 16, 2002-ci

ildə 18, 2003-cü ildə 17, 2004-ci ildə isə 19 kitab sərgisi və kitabxana plakatı təşkil olunmuş, 1990-cı ilin Qanlı 20 Yanvar faciəsinə, 1992-ci ilin Xocalı soyqrımına və s. hadisələrə 4 albom həsr edilmişdir. Bu sərgi, plakat və albomlara 2001-2005-ci illərdə 7 mindən artıq oxucu müraciət etmiş, onlara 12 min nüsxədən çox ədəbiyyat tövsiyə olunmuşdur (5).

C.Cabbarlı adına RGK-nın 2001-2005-ci illərdə təşkil etdiyi "Azərbaycanın müstəqilliyi xalqımızın varlığıdır"; "Qalx ayağa, Azərbaycan"; "Xocalı – əsrin faciəsi"; "Erməni faşizminin iç üzü"; "Tariximiz, bugünümüz"; "Qələbədən qələbəyə"; "Ana yurdum"; «Azərbaycan əsgəri»; "Xalqın səsi – haqqın səsi"; " "Hüquqi dövlət yollarında"; "Düşmənə aman vermə" və s. mövzulu tədbirləri tematik müxtəlifliyi əyani şəkildə təsdiqləyir ki, bütün bunlar oxucuların maraq dairəsinin genişlənməsində mühüm rol oynamışdır.

2001-2005-ci illər ərzində C.Cabbarlı adına RGK-da milli dövlətçiliyə və milli ideologiyaya dair ədəbiyyatın təbliğinə həsr olunmuş 2 oxucu konfransı, 40 mövzu gecəsi, 32 məruzə, 11 mühazirə, 16 biblioqrafik icmal, 20 söhbət təşkil edilmiş və bu tədbirlərdə 10 mindən artıq oxucu iştirak etmişdir. Həmin tədbirlər zamanı oxuculara bütövlükdə 5 mindən çox ədəbiyyat tövsiyə edilmişdir (5).

C.Cabbarlı adına RGK-da milli dövlətçiliyə və milli ideologiyaya dair ədəbiyyatın təbliğinə həsr olunmuş tədbirlər arasında görkəmli dövlət xadimi Heydər Əliyevin əsərlərinin yayılması mühüm yer tutmuşdur. Bu tədbirlərdə vurğulanmışdır ki, Heydər Əliyevin 1969-cu ildən bəri etdiyi çoxsaylı nitq, məruzə və çıxışlarda Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və elmi-mədəni həyatı yüksək səviyyədə işıqlandırılmış, genişh elmi təhlillər, konkret faktlar və rəqəmlərlə ümumiləşdirmələr aparılmış, nəticələr çıxarılmışdır (5).

Bu baxımdan 2003-cü il mayın 10-da C.Cabbarlı adına RGK-da Heydər Əliyevin anadan olmasının 80 illik yubileyi ilə bağlı keçirilmiş ədəbi-bədii gecə və foyedə təşkil olunmuş sərgi xüsusi maraq doğurur. Tədbiri açan kitabxananın direktoru T.Sadıqov giriş sözündə qeyd etmişdir ki, Azərbaycanın son 30 illik tarixi görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin çıxış, nitq, məruzə, xatirə və s. kimi əsərlərində müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-mədəni həyatının ən mühüm sahələri özünün geniş ifadəsini tapmışdır. Ümummilli liderimizin elmi və tarixi, nəzəri və təcrübi əhəmiyyətə malik olan çəxsaylı əsərləri istər sovet hakimiyyəti dövründə (1960-1980-ci illər), istərsə də suverenliyə qovuşduqdan sonra (1990-cı illər) Azərbaycanın keçdiyi mürəkkəb inkişaf yolunu hərtərəfli əhatə etdiyindən əvəzsiz mənbə rolunu oynayır (5).

Natiq qeyd etmişdir ki, Heydər Əliyev ikinci dəfə hakimiyyət başında olarkən onun həyat və fəaliyyətinin son dövrünü əhatə edən ilk kitab "Qətiyyətin təntənəsi" adlanır və bu sanballı kitab ağsaqqal alimimiz, Əmək-

dar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun təşəbbüsü ilə işıq üzü görmüşdür. Onu Kitabxanaçılıq fakültəsinin yetirməsi, tanınmış jurnalist Şakir Yaqubov tərtib etmiş və "Səhər" qəzetinin baş redaktoru Məzahir Süleymanzadənin redaktorluğu ilə 44 çap vərəqi həcmində 848 səhifədən ibarət nəşr edilmişdir. Kitab 1995-ci ildə nəşr olunmuşdur.

Çıxışçı daha sonra demişdir ki, 1997-ci ildən isə Ramiz Mehdiyevin və Hidayət Orucovun məsulluğu ilə Heydər Əliyevin çoxcildlik əsərləri Azərbaycan Dövlət Nəşriyyatında "Müstəqilliyimiz əbədidir" adı ilə buraxılmağa başlamışdır. Yeri gəlmişkən, bu çoxcildlik latın qrafikası ilə nəşr edilir. 1997-ci ildən eyni zamanda Fatma Abdullazadənin məsulluğu ilə "Müstəqilliyimiz yollarında" çoxcildliyi Azərbaycan dilində kiril qrafikası ilə "Azərbaycan" nəşriyyatında çap edilməyə başlamışdır. Bundan başqa, Heydər Əliyevin "Müstəqillik yolu", "Seçilmiş fikirlər", "Aforizmlər", Heydər Əliyev və Bakı Dövlət Universiteti" və başqa kitablar nəşr olunmuşdur. Həmin kitablardan bir çoxu C.Cabbarlı adına RGK-nın kitab fondunda özünə layiqli yer tutur və tez-tez oxucuların istifadəsinə verilir.

Natiq vurğulamışdır ki, Heydər Əliyevin əsərlərinin nəşrinin zəruriliyi haqqında dövri mətbuatda ilk dəfə professor Abuzər Xələfov məqalə dərc etdirmişdir. Prof. A.Xələfov eyni zamanda "H.Ə.Əliyevin rəhbərliyi dövründə Azərbaycanda kitabxana işinin inkişafı (1970-1980-cı illər)" mövzusunda elmi məqalə yazıb çap etdirmişdir. Bununla yanaşı, prof. A.Xələfov Heydər Əliyevin 80 illik yubileyi münasibəti ilə bu görkəmli dövlət xadiminin biblioqrafiyasını da hazırlayıb nəşr etdirmişdir.

Ədəbi-bədii gecə çox maraqlı keçmiş, sonra isə tamaşaçılar "Heydər Əliyev: Zəmanəmizin böyük siyasi xadimi" sərgisinə baxmışlar (5).

Daha bir maraqlı tədbir isə 2004-cü il noyabrın 17-də keçirilmişdir. Bu kütləvi tədbir dövlət başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinin bir illiyinə həsr olunmuşdu. Tədbirdə qeyd edilmişdir ki, Heydər Əliyevin xarici siyasət strategiyasından bəhrələnən İlham Əliyevin uğurlu diplomatiyasının mühüm xüsusiyyətlərindən biri də budur ki, o, milli problemləri reallığın məntiqi ilə düzgün əlaqələndirir, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə lazımi səviyyədə çatdıra bilir. Təsadüfi deyil ki, onun son zamanlar Dağlıq Qarabağ probleminin həlli istiqamətində qətiyyətli və birmənalı mövqeyi dünya ictimaiyyəti arasında ölkəmizin imicini qaldırmışdır.

Daha sonra müxtəlif orta məktəblərdə təhsil alan tələbələr Vətənə, vətənpərvərliyə və dövlətçiliyə dair ədəbi-bədii kompozisiyanı nümayiş etdirmişlər. Tədbirdə iştirak edən rayon Icra Hakimiyyətinin və yerli bələdiyyə orqanlarının nümayəndələri C.Cabbarlı adına RGK-nın təşkil etdiyi bu tədbiri çox yüksək qiymətləndirmişlər. Həmin kütləvi tədbir çox maraqla qarşılanmış və xeyli oxucunu özünə cəlb etmişdir (5).

Göründüyü kimi, C.Cabbarlı adına RGK-da son illərdə oxucuların ideya-siyasi tərbiəsinə həsr edilən tədbirlərin təşkili keyfiyyətcə xeyli dəyişmiş, müasir məna kəsb etmişdir. Bu da bilavasitə oxucuların həmin tədbirlərdə açıq fikir söyləmək, fikir mübadilələri aparmaq, baş verən nöqsanlara qarşı tənqidi yanaşmaq, yeni maraqlı mülahizələr irəli sürmək prinsipləri ilə əlaqədar olmuşdur. Bununla belə, milli ideologiya və dövlətçilik sahəsində informasiya mənbələrinə marağın getdikcə artdığını nəzərə alaraq bu sahədə mövcud olan informasiya daşıyıcılarının biblioqrafiyalaşdırılması ehtiyacı yaranmışdır.

Milli ideologiyanın və dövlətçiliyin cəmiyyətdə geniş yayılmasının əsas göstəricilərindən biri də onun informasiya təminatıdır. Çünki hər hansı bir ideologiyanın kütlələr içərisində geniş yayılmasında informasiya vasitələrindən və vəsaitlərindən geniş istifadə olunur. Onların içərisində bioqrafik informasiya mənbələrinin əhəmiyyətli rolu vardır. Xüsusilə ilkin sənədlər və onların haqqında biblioqrafik informasiya mənbələri mühüm əhəmiyyət kəsb edir.

C.Cabbarlı adına RGK-da milli ideologiya və milli dövlətçilik mövzusuna dair onlarla kitab, yüzlərlə məqalə toplanmışdır. Ona görə də, məsələn, "Beynəlxalq münasibətlərdə diasporların rolu" (Z.Əliyev), "Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri" (İ.İsmayılov), "Tarixə yaddaş ömür" (M.Əlizadə), "Siyasi strategiya və milli təhlükəsizlik problemləri" (A.Piriyev) kitabları və "Azərbaycan dövlətçiliyi ideologiyası" (C.Musayev), "Milli ideologiya və ümummilli lider" (S.Xəlilov), "Dövlətçilik ideologiyası" (A.Şirinov) və s. kimi ilkin mənblərlə bağlı ikinci dərəcəli mənbələrin, yəni biblioqrafik informasiya vəsaitlərinin yaradılması və Avtomatlaşdırılmış Biblioqrafik Məlumat Bazasının təşkili qarşıda duran aktual məsələlərdəndir.

C.Cabbarlı adına RGK-nın bu istiqamətdə apardığı işlərin təhlili sübut edir ki, kitabxanaçılar müasir dövrdə Azərbaycanın müstəqilliyi şəraitində milli dövlətçiliyə və milli ideologiyaya dair ədəbiyyatın təbliğinin əsl mahiyyətini düzgün başa düşmüş, kitablar bu vacib işə həvəslə, səriştəliklə yanaşmışlar. Bununla belə qeyd etməliyik ki, kitabxana bu sahədə hələ daha çox iş görməli, daha çox uğur qazanmaq üçün səmərəli fəaliyyət göstərməlidir. Ona görə də gələcəkdə işin yaxşılaşdırılması üçün ilk növbədə milli dövlətçiliyə və milli ideologiyaya dair ədəbiyyatın təbliği zamana milli dövlətçiliyimizin, milli ideologiyamızın inkişafına, Azərbaycan tarixinə, soykökümüzə, xalqımızın milli-azadlıq mübarizəsinə dair əyani və şifahi təbliğat üsullarının təşkilinə daha çox fikir verilməlidir;

- Milli ideologiyaya və dövlətçiliyə dair ədəbiyyatın təbliği zamanı fərdi və kütləvi iş forma və üsullarından daha yaradıcılıqla istifadə edilməlidir ki, kitabxana fondunu oxucular qarşısında tam şəkildə açmağa imkan yaransın;

- Oxucuların hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi məqsədilə milli ideologiyaya və dövlətçiliyə dair ədəbiyyatın təsirindən səmərəli istifadə edilməlidir.

## ƏDƏBİYYAT

*1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 1996, 32 s.*

*2. Xələfov A. Heydər Əliyev əsərlərinin nəşri və təbliği məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya, 2002, №2, S.5-16.*

*3. Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik (1-ci hissə). Bakı:Bakı Universiteti Nəşriyyatı, 2001, 400 s.*

*4. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemləri. Bakı: BDU, 2002, 530 s.*

*5. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 2001-2005-ci illər üzrə hesabatları.*

## IN THE MODERN TIME AMONG THE YOUNG READERS ABOUT TO NATIONAL IDEOLOGY AND TO STATEHOOD PROPAGANDA OF THE LITERATURE

**A.A. HAJIYEVA**

***SUMMARY***

*In the article the independence of Azerbaijan in the national ideology and the literature related to the propagation of the importance of overnance, libraries, the promotion of forms of was about.*

## ПРОПАГАНДА ЛИТЕРАТУРЫ О НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ И ГОСУДАРСТВЕННОСТИ СРЕДИ МОЛОДЫХ ЧИТАТЕЛЕЙ В СОВРЕМЕННОЕ ВРЕМЯ

**А.А.ГАДЖИЕВА**

***РЕЗЮМЕ***

*В статье устанавливаются значение и формы пропаганды литературы о национальной идеологии и государственности среди молодых читателей в библиотеках в современном периоде независимости Азербайджана.*